# AZƏRBAYCAN TOY MƏRASİMLƏRİNDƏ AYİNLƏRİN ROLU

Evliliyin bünövrəsi toy mərasimləri ilə başlayır. Xalqların keçmişini, mənəvi mədəniyyətini, dünyagörüşünü tədqiq etmək üçün qiymətli mənbələrdən biri də toy mərasimləridir. Dini, milli, hüquqi və mədəni dəyərlərlə formalaşan ailənin qurulması hər bir xalqın özünəməxsus mədəniyyətini əks etdirən toy mərasimləri ilə müşayiət olunur.

Ərazisinin etnik rəngarəngliyi nəticəsində Azərbaycan toy mərasimləri müxtəlif adət-ənənələr və ayinlərlə zəngindir. Belə ki, minilliklər boyu mövcud olan ibtidai inamların və dinlərin (maqiya, totemizm, animizm, fetişizim, əcdada sitayiş və s.) qalıqları məhz ailə məişəti və o cümlədən toy mərasimlərində qalmışdır. Bu baxımdan toy mərasimlərimiz Azərbaycan mənəvi mədəniyyətinin ən mühüm tərkib hissəsidir. Azərbaycanın qədim toy mərasimlərində insanların hər zaman ehtiyac duyduğu və duyacağı mənəvi mədəniyyət ünsürlərindən biri olan ayinlərin də böyük rolu və yeri olmuşdur. Xalqımızın toy mərasimləri "qızbəyənmə", "elçilik", "nişan", "paltarkəsdi", "xınayaxdı", "toy", "duvaqqapma", "üzəçıxdı", "ayaqaçdı" kimi adətlər toplusudur. Toy mərasimlərimizdə icra olunan ayinlər yeni evlənənləri bəd nəzərdən və pis ruhlardan qorumaq, xoşbəxtlik və səadət bəxş etmək, ruhları razı salmaq məqsədi ilə edildiyi üçün onların kökü ibtidai insanların inanclarına-maqiya, əcdada sitayiş, bütpərəstlik, şamanizm kimi qədim din və inanclara bağlıdır. Məsələn, Azərbaycanın bir çox bölgələrində gəlinin bəy evinə girərkən qapının kəndarına ayaq basmadan içəri girməsi, gəlin gətirilərkən tüfəng atılması, qapının çərçivəsinə yağ sürtülməsi (udinlərdə), ocağa dəmir atılması (ingiloylarda) və s. ayinlər qədim inanclara bağlıdır. Pis ruhların qandan, dəmirdən, duzdan, səs-küydən və s. qorxmasına inanan insanlar çox qədim zamanlardan bəri bir çox vasitələrdən istifadə edərək müxtəlif ayinlər icra etmişlər.

**Insan həyatının ən mühüm mərhələsini əhatə edən evlilik qədim dövrlərdən etibarən bütün türk xalqları üçün müqəddəs məna kəsb etmişdir. Tədqiqatçıların türk mənşəli olduğunu sübuta yetirdikləri qədim şumerlərdə «ev» - məbəd anlamına gəlirdi. Dilimizdəki "ev" sözündən meydana gələn "evlilik" kəlməsi də müqəddəslik, paklık mənasındadır.**

Tarixən etnik rəngarəngliyi ilə seçilən Azərbaycanda əhalisinin əsasını təşkil edən azəri türkləri ilə yanaşı bir çox azsaylı xalqlar yaşamaqdadır. Şübhəsiz ki, əsrlər boyu qarışıq və yanaşı yaşama həm azərilərin, həm də azsaylı xalqların adət-ənənələrində, o cümlədən toy mərasimlərində müəyyən iz qoymuşdur.

Toy mərasimlərinin bütün mərhələlərində icra olunan simvollar, zəngin ayinlər hər bir xalqa

spesifiklik qazandırır və hər bir xalqın etnik tarixi müəyyən dərəcədə həmin xalqa xas olan mərasim və ayinlər sistemində də öz əksini tapır. Azərbaycanda yaşayan tat, talış, ləzgi, avar, saxur, rutul, ingiloy kimi azsaylı xalqların adət və ənənələrində azərbaycanlılara xas olan vahid etnik əlamətlər üstünlük təşkil etsə də azsaylı xalqların lokal-səciyyəvi xüsusiyyətləri də mövcuddur.

XIX-XX əsrin əvvəllərində Azərbaycan toy mərasimləri ilə bağlı ayinlər mahiyyət etibarilə eyni olsalar da, Azərbaycanın müxtəlif etnoqrafik bölgələrində (Şəki-Zaqatala, Quba-Qusar, Lənkəran-Astara və s.) fərqli icra edilərək bu bölgələrdə yaşayan hər etnik qrupun özünəməxsus mənəvi mədəniyyətini də əks etdirir. XIX-XX əsrlərdə toy mərasimlərinin ilk mərhələsi olan qız istəmə-elçilik Azərbaycanın müxtəlif etnoqrafik bölgələrində müxtəlif şəkildə icra edilirdi. Belə ki, Azərbaycanın əksər bölgələrində elçilik zamanı razılıq simvolu şirin çay içildiyi halda, azərilərlə bərabər avar, ingiloylar, saxurlar və s. yaşadığı Şəki-Zaqatala bölgəsində bu, elçilərin çörək kəsməsi ilə, bölgədə yaşayan azsaylı xalqlardan biri sayılan udinlər arasında isə oğlan evinin gətirdiyi almanın qız evində yarı bölünməsi və bir hissəsinin oğlana göndərilməsi, Quba-Qusar bölgəsində yaşayan Şahdağ xalqları arasında isə yağ, bal yaxılmış lavaşın dürmələnib yarı bölünməsi kimi rəmzi hərəkətlərlə ifadə edilirdi.

Yuxarıda adını çəkdiyimiz mərasim ayinləri Azərbaycanın çox qədim ənənələrinə bağlıdır. (Məsələn, çörək kəsmək-insanla ömürlük dostluq deməkdir və ya nağıllarımızda almanın sevgiliyə yarı bölünüb göndərilməsi-sevgi, birlik deməkdir-ənənələri kimi). Toy mərasimlərinin digər mərhələsində-gəlinin bəy evinə gətirilməsi zamanı da Azərbaycanda bolluq simvolu kimi bərəkətlə bağlı müxtəlif ayinlər icra olunurdu. Məsələn, azəri türkləri gəlinin ruzulu, çörəkli olması üçün bəy evinə daxil olan gəlinin başı üstündə çörək kəsirdilər, talışlarda və Şahdağ etnik qruplarında bu məqsədlə gəlinin başına düyü və buğda səpirdilər, avarlarda gəlini ata evindən şişə çəkilmiş ət və çörək ilə yola salırdılar, udinlərdə qız evi bəyi üç çörək, üç yanar şam və yumurta ilə qarşılayır, ingiloylarda gəlin ata evindən çıxarkən anasının əlində tutduğu çörəyin altından keçirilirdi. Azərbaycanın Şəki-Zaqatala bölgəsində yaşayan etnik qruplardan biri olan saxurlarda isə "ketur" adlanan bir adətə görə gəlini bəy evində halva, şirniyyat və ət olan bir qab ilə qarşılayırdılar, gəlini müşayət edən "cilovdar" qabdakı əti xəncərə keçirərək bəy evinin həyətində oğlan adamı ilə qarşı-qarşıya rəqs edirdi.(2) Bu ayin də bərəkət, birlik rəmzi kimi icra edilirdi.

Azərbaycanın toy mərasimlərində gəlinin ata evindən həmişəlik ayrılması və getdiyi evdə ömürlük qalması niyyəti ilə icra edilən ayinlər də çox maraqlıdır. Məsələn, Lənkəran-Astara bölgəsində yaşayan talışlar arasında gəlinin ata evindən ayrıldığı zaman göz yaşlarını sildiyi dəsmalını ata evində "unutması", gəlinin ata evindən gətirdiyi mıxı bəy evinin qapısına çalması, Azərbaycanın qərb bölgələrində gəlinin cibinə daş qoyulması kimi simvollarla zəngin adətlər mövcud olmuşdur. Bu simvollar Azərbaycanın qədim adət-ənənələrini əks etdirir. Məsələn, dəsmal ayrılıq mənasını ifadə edir və ya çox qədim adət və ibtidai təsəvvürlərə görə hər kəsin bir daşı var və insanların ruhu bu daşlara keçir.(3, s.131).

Azərbaycanda gəlinin evə şirinlik gətirməsi arzusunu ifadə edən ayinlərdə (bal yaxma, gəlinin başına şəkər, qənd tökülməsi və s.) geniş yayılmışdır. Maraqlıdır ki, bu simvolik ifadə bir çox türk xalqlarının toy ənənələrində mühüm yer tutur. Bu ayin Azərbaycanın müxtəlif etnoqrafik bölgələrində az fərqlə icra edilirdi: Azərilərdə gəlin bəy evinə girərkən barmağını bala batırıb qapıya yaxırdı, talışlarda gəlin başında bir kasa bal ilə evə girirdi və baldan qonaqlar da dadırdılar. Udinlərdə bu adət daha fərqli icra edilirdi: toyun axırıncı günü bəyi bal suyunda çimdirirdilər.

XIX-XX əsrlərdə udinlərin toy mərasimlərində magiya xarakterli qədim bir ayin də icra edilirdi: Oğlan toyundan bir gün əvvəl, toy xörəyi üçün kəsilən öküzün qanı ilə bəy və gəlinin



paltarları isladılırdı. Oğlanın ya anası, ya da bacısı qanlı paltarları bir-birinə düyünləyib qaranlıq bir yerdə toy bitənədək gizləyirdi. Toydan sonra isə paltarlar yandırılırdı. Bu ayin pis ruhların gənclərin evliliyinə ziyan verə bilməməsi üçün icra edilirdi. Bu inancın izlərinə Azərbaycanda NOVRUZ ərəfəsində-ilaxır çərşənbədə köhnə əşyaların yandırılması adətində də rast gəlirik.

Məlum olduğu kimi qədim dini təsəvvürlər sistemində qoruyucu ruhlar (Göy ruhları-Göy, Günəş, Ay, Ulduz; Yer ruhları-Dağ, Qaya, Yer, Su, Ağac , Bitkilər; Ev ruhları-Ocaq, Atəş və s.) mövcud idi. Azərbaycan ailə məişətində xüsusilə toy mərasimlərində bu qədim inanc sistemi ilə bağlı bir sıra ayinlər hələ də icra edilməkdədir. Azərbaycanın bütün bölgələrində ruhları razı salmaq üçün gəlinin ayağı altında qurban kəsmək, bədnəzərdən qorunmaq üçün müqəddəs ağac və bitkilərdən istifadə (saxurlarda gəlinin paltarına dağdağan ağacından muncuq tikilməsi, gəlin atının alnına mixək qoyulmuş qırmızı parçadan tikilmiş dua asılması, ingiloylarda gəlinin cehiz sandığına üzərlik qoyulması və s.), günəşə sitayiş rəmzi olaraq gəlinin ovuçlarına xına yaxılması, üzünün qırmızı duvaqla örtülməsi, bəy evinə qırmızı atla aparılması; suya sitayişlə bağlı gəlinin su dolu qabın üstündən keçirilməsi, toydan sonra "suya ayaq açdi" mərasimləri məhz qədim dini təsəvvürlərdən qaynaqlanırdı.

Azərbaycanda qədim türklərin mühüm inanc sistemi olan əcdada sitayişin izləri də qalmaqdadır. Bu ailə məişətində və o cümlədən toy mərasimləri ilə bağlı adət-ənənələrində özünü biruzə verir. Prof. A.Şükürovun yazdığı kimi insan özünü əcdadlar nəslinin bir hissəsi hesab etdiyi üçün valideynlərdən başlayaraq qəbilə və tayfaların banisi olan əcdada diqqət və hörmət göstərir. (4, s.130). XIX-XX əsrlərin əvvəllərində Azərbaycanda toydan sonra gəlinin bir müddət əri ilə və onun nəslinə mənsub böyüklərinə adları ilə müraciət etməməsi bu qədim inanc sistemi ilə əsaslanır. Bu adət hələ İslamiyyətdən öncə Azərbaycanda mövcud olmuş, İslamın qəbulundan sonra isə İslamiyyətlə qaynayıb qarışmışdır. Bu fikirmizi əsaslandırmaq üçün Şəki-Zaqatala bölgəsində yaşayan və qədim alban tayfalarından biri olan udinlərin adət-ənənələrinə nəzər salmaq kifayətdir. Q.Cavadov və R.Hüseynovun «Udinlər» əsərində udinlər arasında keçmişdə gəlinlərin yaşmaq tutmaq, böyüklər yanında uşağını qucağına almaması adətləri haqda məlumat verilir. Bu təsdiq edir ki, belə adət təkcə İslam dini ilə məhdudlaşmır.(5, s.135). Gəldiyimiz qənaətə görə, tarix boyu fərqli din və mədəniyyətlərdən təsirlənən həm azərilər, həm də Azərbaycanda yaşayan etnik qruplar tarixi zaman içərisində qədim inanc sistemlərini İslam düşüncə tərzi ilə birləşdirərək yeni bir sintez yaratmış və bununla da qədim dini dünyagörüşlərini bu günədək özünəməxsus şəkildə yaşatmışlar. Göründüyü kimi, XIX-XX əsrlərin əvvəllərində Azərbaycan toy mərasimlərinin bütün mərhələlərində icra edilən ayinlərin kökü qədim inanclardan qaynaqlanmışdır və ibtidai dinlər İslam dininə də öz təsirini göstərmişdir.

● Məhəbbət PAŞAYEVA,
*tarix elmləri namizədi*

## Ədəbiyyat

1. Qeybullayev Q. Azərbaycanlıların etnik tarixinə dair. Bakı, 1994.
2. Paşayeva M. Azərbaycanlıların ailə məişətində etnik ənənələr. Avtoreferat. Bakı, 2000.
3. Adilov M. Niyə belə deyirik? Bakı, 1982.
4. Şükürov A. Mifologiya. Bakı, 1997.
5. Cavadov Q. Huseynov R. Udinlər. Bakı, 1989, s. 135.

## Summary

**ROLE OF RITES İN AZERBAIJANI WEDDING CEREMONIES**

Ethic diversity of the colours of Azerbaijanies enriched with different rites is its wedding ceremony. In the paper were described general and specific peculiarities of wedding rites not only of Azerbaijan people, but others ethnic nationalities of Azerbaijan in XIX-XX centuries as well.

*Key Words:* Wedding, Ceremony, Rite.